AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

*Güney Azərbaycanın milli azadlığı uğrunda şəhid olanların əziz xatirəsinə ithaf olunur!*

**VAQİF ŞİRİNOĞLU**

# GÜNEY AZƏRBAYCANLILARIN MİLLİ-AZADLIQ HƏRƏKATI (1941-1946-cı illər) TARİXİNİN TARİXŞÜNASLIĞI

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
BAKI – 2023

63.3(5Aze)6 + 63.2(5Aze)
Ş 66

*Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının iclasının 2023-cü il 26 aprel 03 saylı qərarı ilə çapa məsləhət görülmüşdür.*

Elmi redaktor: **Eynulla Mədətli**
*Tarix elmləri doktoru*

Rəyçilər: **İsmayıl Musa**
*Tarix elmləri doktoru, professor*
**Səməd Bayramzadə**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Vaqif ŞİRİNOĞLU. Güney Azərbaycanlıların Milli-Azadlıq Hərəkatı (1941-1946-cı illər) tarixinin tarixşünaslığı. Bakı, "Elm və təhsil", 2023, 192 səh.**

Təqdim olunan monoqrafiyada, İranda Azərbaycan türklərinin milli-azadlıq hərəkatının (1941-1946-cı illər) tarixi ilə əlaqədar, əsasən Güney Azərbaycan Milli Hökumət üzvlərinin və digər soydaşlarımızın yazmış olduqları əsərlər, eləcə də sovet, çağdaş Azərbaycan və Rusiya tarixşünaslığı təhlil olunur.

Monoqrafiya Azərbaycanın ən yeni tarixini araşdıranlar, müəllim və tələblər, həmin illərin siyasi-tarixi hadisələri ilə maraqlananlar, eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**ISBN978-9952-568-37-0**

© VAQİF ŞİRİNOĞLU, 2023

## KİTABIN İÇİNDƏKİLƏR

Giriş....................4
I Fəsil: Milli-azadlıq hərəkatı tarixi Güneyli soydaşlarımızın əsərlərində əksi....................25
II Fəsil: Milli-azadlıq hərəkatı tarixinin öyrənilməsində S.C.Pişəvərinin əsərlərinin əhəmiyyəti....................76
III Fəsil: Milli-azadlıq hərəkatı tarixi Quzey Azərbaycan tarixşünaslığında....................86
IV Fəsil: Milli-azadlıq hərəkatı tarixi Rusiya tarixşünaslığında....................114
Nəticə....................128
İstifadə edilmiş ədəbiyyat siyahısı....................132
Biblioqrafiya....................145
Xülasələr....................158
Əlavələr....................161
Adlar göstəricisi....................187

## GİRİŞ

Güney azərbaycanlılarının milli-azadlıq hərəkatı (1941-1946-cı illər) tarixinin tarixşünaslıq aspektindən elmi tədqiqata cəlb olunması, heç şübhəsiz, mövzunun indiyə kimi bu aspektdən geniş araşdırılmamasından irəli gəlir. Digər tərəfdən, 1941-1946-cı illərdə Güney Azərbaycandakı olaylarla bağlı Firqə arxivindəki materialların, o cümlədən S.C.Pişəvərinin məqalə və xatirələrinin, eləcə də İran, Türkiyə, Azərbaycan və onun sərhədlərindən kənarda yazılmış çoxsaylı əsərlərdə mövcud olan faktların və arxivlərdə saxlanılan sənədlərin bir qisminin işıq üzü görməsi 1941-1946-cı illərdə Güneydəki olaylara – "21 Azər" mövzusuna, Azərbaycan Milli Hökuməti ilə bağlı məsələlərə yenidən qayıtmaq zərurəti yaradır.[1;2]

Mövzunun tarixşünaslığının 1941-1991-ci illər dövrü daha çox iki sistemin – sosializm və kapitalizm sistemlərinin ideoloji və siyasi mübarizəsinin tələblərinə uyğunlaşdırılmış formada yazılmışdır.

Tədqiqata cəlb olunan mövzu ilə bağlı bu günə kimi bir çox əsərlərin yazılmasına rəğmən, 1941-1946-cı illərin

[1] 21 Azərə gedən yol. Əkrəm Rəhimli – Bije. ttps://www.xalqcebhesi.az/news/southazerbaijan/37056.html

[2] Əkrəm Rəhimli- Bije: Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər)-I hissə. https://gadtb.com/%C9%99kr%C9%99m-r%C9%99himli-bije-guney-az%C9%99rbaycanda-milli-demokratik-h%C9%99r%C9%99kat-1941-1946-ci-ill%C9%99r-i-hiss%C9%99/





tarixi hadisələrini tarixşünaslıq aspektindən obyektiv araşdırılıb təhlil edilməsi və əsl həqiqətlərin üzə çıxarılmasına ehtiyacın olduğu qeyd olunmalıdır.

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Azərbaycanın tarix elmində baş verən dəyişikliklər, əsasən dövlət müstəqilliyinin yenidən bərpa olunması (1991-ci il) ilə bağlı idi. Dövlət müstəqilliyinin bərpa olunması ilə Vətən tarixinin bütün mərhələlərinin, eləcə də İranda Azərbaycan türklərinin milli-azadlıq hərəkatının yenidən araşdırlmasını, tarixi hadisələrin obyektiv və tarixi reallıqları nəzərə almaqla yazılmasını zəruri etmişdir.

Bu günə kimi problemlə əlaqədar yazılan əsərlərin bir qismi daha çox ədəbi-bədii janrlarında – şeir, hekayə, tarixi roman, xatirə janrlarında araşdırılan problemə yanaşıldığını görmək mümkündür. Bununla belə, Güney azərbaycanlılarının milli-azadlıq hərəkatının tarixi ilə əlaqədar daha geniş və elmi-tədqiqat xarakterli araşdırmalar da var. Həmin əsərlər monoqrafiyanın ayrı-ayrı fəsillərində təhlil olunur. Bütün bunlarla yanaşı, onu da qeyd etmək vacibdir ki, güneyli soydaşlarımızın əsərləri xüsusi əhəmiyyət daşıyır. Çünki onlar, bilavasitə bəhs olunan problemin içində yaşamış, mübarizə aparmış və onların bir çoxu Azərbaycan Milli Hökumətində və Milli Məclisində vəzifələr tutmuşdular. Onların bir çox milli-azadlıq rolunda canlarını qurban vermişdilər.

Beləliklə, bu gün tədqiqata cəlb olunan problemin elmi cəhətdən araşdırılmasını aktual edən şərtləri aşağıdakı kimi sıralamaq mümkündür:

1) 1991-ci ildən bu günə kimi böyük sayda ədəbiyyatın elmi dövriyyəyə gətirilməsi vaxtilə problemlə əlaqədar olaraq yazılmış elmi-tədqiqat əsərlərinin yenidən nəzərdən keçirilməsinə şərait yaradır. Sözsüz ki, müəllif bunların müqayisəli şəkildə nəzərdən keçirmək, təhlil etmək və bir monoqrafiya şəklində araşdırmaq vaxtının artıq çoxdan gəlib çatdığı qənayətindədir;

2) bu gün Azərbaycan tarixinin bütün sahələrinin, xüsusən 1941-1946-cı illərdə baş vermiş siyasi-tarixi hadisələrinin, Azərbaycanın müstəqillik dövrü tarixindən çıxış edərək, yenidən araşdırılmasına çox böyük ehtiyac var;

3) nəhayət, 1941-1946-cı illərin milli-azadlıq hərəkatı qarşısında duran mühüm vəzifələrin – Güney azərbaycanlılara özünüidarəetmə hüququnun verilməsi, ana dilinin (Azərbaycan türk dilinin) dövlət idarələrində işlədilməsi, eləcə də ana dilində təhsil almaq və s. bu kimi vəzifələrin həll olunmaması problemin XXI əsrin birinci yarısı üçün də öz aktuallığını saxlayan əsas məsələlərdən hesab etmək olar.

Keçən dövr ərzində "21 Azər" hərəkatının tarixinə aid bir çox elmi-tədqiqat əsərləri, xatirələr yazılıb. Güney Azərbaycan problemləri ilə əlaqədar, müxtəlif illərdə aparılan araşdırmalarda 1941-1946-cı illər milli-azadlıq hərəkatı və xüsusən, Azərbaycan Milli hökumətinin yaranması, onun müxtəlif sahələr və istiqamətlər üzrə fəaliyyəti, Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyəti, Hərəkatın hərəkətverici qüvvələri, məğlubiyyət səbəbləri, eləcə də ABŞ, Böyük Britaniya və SSRİ-nin (buraya Azərbaycan





sovet hökumətini fəaliyyəti də daxildir) Güney azərbaycanlıların milli-azadlıq hərəkatına olan münasibətləri və sair məsələlərin təhlil olunduğu qeyd olunmalıdır.

Təqdim olunan monoqrafiyanın giriş hissəsində, həmçinin ayrı-ayrı fəsillərində yuxarıda göstərilən məsələlərin indiyə kimi araşdırılma vəziyyəti və əldə olunmuş nəticələri tarixşünaslıq aspektindən təhlil edilir.

Əlbəttə, müxtəlif illərdə yazılmış əsərlərin təhlil olunması əsl tarixi həqiqətlərin üzə çıxarılmasına şərait yaradır. Tarixçilərin yazdıqları əsərlərin tarixşünaslıq baxımdan təhlil olunması tarixi reallıqların həqiqiliyinin üzə çıxarılması formalarından biridir.

Fikrimzcə, hazırda əldə olunmuş materiallardan istifadə etməklə Milli-Azadlıq Hərəkatı tarixinin tarixşünaslıq baxımından təhlil olunması olduqca vacibdir. Heç şübhəsiz, həmin illərin tarixi hadisələrinə olan marağın və diqqətin artması, ilk növbədə "keçmişə maraq bu günümüzü başa düşməyə cəhd göstərməkdən"[3] irəli gəldiyi qeyd olunmalıdır.

Digər tərəfdən, tarixçi tarixşünaslıq faktları və tarixşünaslıq mənbələri ilə işləyərkən onların yaranmasının konkret tarixi şəraiti, həmin dövrün ictimai-siyasi şəraitinin tədqiqatçının dünyagörüşünə təsiri, problemin öyrə-

[3] Ж.Ле.Гофф. *История и память*. М.:Российская политическая энсиклопедия (РОССПЭН), 2013, 303 с.

nilməsində tədqiqatçının əməyinin dərəcəsinin qiymətləndirilməsi və s. məsələlərin öyrənməsi vacibdir.[4]

Qeyd olunmalıdır ki, "21 Azər" hərəkatının sağ qalan iştirakçıları və şahidləri hadisələri daha dolğun və obyektiv şərh etmək imkanına malik idilər. Ona görə də monoqrafiyada, araşdırılan problemlə bağlı güneyli soydaşlarımızın əsərlərinin geniş və əhatəli təhlil olunması üçün "Milli-Azadlıq Hərəkatı tarixinin güneyli soydaşlarımızın əsərlərində əksi" adlı ayrıca bir fəsil tərtib edilib. Həmin fəsildə "21 Azər" hərəkatının sağ qalan iştirakçılarının, şahidlərinin, ümumiyyətlə güneyli soydaşlarımızın əsərlərinin təhlil olumasına çalışılır.

Məlumdur ki, sovet dönəmində problemlə əlaqədar ideoloji sistemin prinsiplərindən çıxış edərək bir sıra elmi-tədqiqat əsərləri yazılmışdır. Sovet tarixçilərinin əsərlərinin, demək olar ki, əsas leytmotivini "SSRİ-nin yardımı ilə başalanan hərəkat", "Sovet dövlətinin diqtəsi ilə fəaliyyət göstərən hökumət", "Sovet dövlətinin yardımının kəsilməsi ilə məğlub olan hərəkat" kimi fikirlər təşkil etmişdir. Məhz bu baxımdan, əgər güneyli soydaşlarımızla sovet dövrü müəlliflərinin yazmış olduqları əsərləri qarşılaşdırıb və qısa da olsa müqayisəli təhlil etmiş olsaq, onda belə bir fikri qeyd etmək olar ki, birincilər milli-azadlıq hərəkatının əsas səbəbini daha çox Pəhləvi rejiminin həyata keçirmiş olduğu sosial-siyasi və milli siyasətlə, eləcə də

[4] В.Д.Камынин. Теротические проблемы историографии как научной и учебной дисциплины на рубеже XX-XXI столетий. Scahi. org/…/kfm-ynin_teoria_istoriografii.pdf





Azərbaycan türklərinin özünüidarəetmə hüququ əldə etmək istəyi ilə (demokratik əsaslarla formalaşan Mərkəzi hakimiyyətə tabe olan Muxtariyyət quruluşlu bir özünüidarəetmə forması), ikincilər isə Sovet dövlətinin ikinci dünya müharibəsinin başlanması, faşist Almaniyasının Pəhləvi rejiminə güclü təsiri səbəbindən İrana qoşun yeritməsi ilə, Hərəkata hərtərəfli yardımın göstərilməsində SSRİ rəhbərliyinin siyasi və iqtisadi maraqlarından irəli gəlməsi ilə əlaqələndirmişdilər.

Məlumdur ki, Sovet ideoloji sisteminin sərt senzurası altında Güney azərbaycanlıların milli-azadlıq hərəkatı haqqında (ümumiyyətlə, hər-hansı bir tarixi hadisə ilə əlaqədar) yazmaq istəyən tarixçi, ədəbiyyatçı və ya hər hansı bir şəxs üçün obyektiv, tarixi reallıqları əks etdirən elmi-tədqiqat və ədəbi-bədii əsərləri, eləcə də xatirələri qələmə almaq nəinki çətin idi, ümumiyyətlə mümkün deyildi. Olsa-olsa, yalnız problem haqqında müəyyən olunmuş "qırmızı xətt"ə qədər yazmaq olardı. Ondan o yana keçməyin hansı əks təsirlərin olacağı çox da uzaq olmayan tarixdən bəllidir. Eyni fikirləri İranda mövcud olmuş Pəhləvi-fars rejimi ilə əlaqədar da demək mümkündür. Bununla əlaqədar Əkrəm Rəhimli haqlı olaraq qeyd edirdi ki, 40-cı illərin ilk yarısında Güneydəki xalq hərəkatı, Azərbaycan Demokrat Firqəsi, 21 Azər, Milli Hökumətlə bağlı kitablar, tədqiqatlar, məqalələr, xatirələr və arxiv sənədləri həm İranda, həm də onun hüdudlarından kənarda çap olunub. Bunların bir çoxu dövrün və rejimlərin ruhuna uyğun yazıldığından, onlardakı faktlar və şərhlər çox vaxt obyektiv

məzmundan uzaq olmuş, bəzən də real düşünən müəlliflərə həqiqətləri olduğu kimi yazmağa imkan verilməmişdir. 1978-1979-cu il İran inqilabına qədər ölkədə nəşr olunmuş kitab və məqalələrdə şah rejiminin Azərbaycan türklərinə qarşı ayrı-seçkilik əməllərinin, törətdiyi cinayətlərinin, günahsız qətllərinin, həbs və sürgünlərinin üzərindən ya sükutla keçilmiş, ya da olaylara bilərəkdən başqa rəng verilmişdir. Hər şey rejimin senzurası altında olduğundan Azərbaycandakı hadisələrlə bağlı məsələlər birtərəfli şərh edilib, şahənşah qoşununun 1946-cı ilin noyabr-dekabr aylarında Azərbaycana hücumuna və törədilmiş qanlı hadisələrə bəraət qazandırmağa cəhd olunub. Bunun üçün qondarma və yalan uydurmalar ("təcziyə tələblik" - separatçılıq - Allahsız bolşeviklərə satılma və s.) ortaya atılıb, həqiqətlər bilərəkdən təhrif olunub.[5;6;7]

Sovet rejimi dövründə Güney Azərbaycana aid yazılar əsərlər, xüsusən 1941-1946-cı il milli-azadlıq hərəkatı, "21 Azər", Azərbaycan Milli Hökumətinin fəaliyyəti və məğlubiyyəti ilə bağlı bir çox məsələlərin şərhi o vaxtkı siyasi mühitin çərçivəsindən kənara çıxa bilmədiyini qeyd edən Əkrəm Rəhimli yazır ki, həmin tədqiqatlarda və yazılarda

---

5 Əkrəm Rəhimli – Bije. 21 Azərə gedən yol. ttps://www.xalqcebhesi.az/news/southazerbaijan/37056.html

6 Əkrəm Rəhimli- Bije: Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər)-I hissə. https://gadtb.com/%C9%99kr%C9%99m-r%C9%99himli-bije-guney-az%C9%99rbaycanda-milli-demokratik-h%C9%99r%C9%99 kat-1941-1946-ci-ill%C9%99r-i-hiss%C9%99/

7 Əlizadə (Barış Mərəndli) H. 21 Azər" soyqırımı (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar)". /Fars dilindən tərcümə edən: Saleh Dostəliyev. Bakı: "Elm və təhsil"nəşriyyatı. – 2017. – 376 s.





bir sıra məsələlərə: Güney Azərbaycandakı hərəkata sovetlərin xəyanəti və müdaxiləsi, Güneydə muxtar Azərbaycan dövlətinin yaradılmasına Stalin-Mikoyan-Beriya dəstəsinin mənfi münasibəti, İran Xalq Partiyasının (Tudə) Azərbaycan Demokrat Firqəsinə və Azərbaycandakı xalq hərəkatına qısqanc münasibəti və bir çox hallarda ona qarşı durması, Qəvamüssəltənənin Sovet rəhbərliyi ilə Moskvadakı sövdələşməsinin mahiyyəti, Milli Hökumətin süqutunda neft amilinin rolu və İrana qarşı Sovet ekspansiya niyyətləri, şah qoşunlarının Azərbaycana hücumundan əvvəl hazırlanmış təxribat əməliyyatı, Milli Hökumətin məğlubiyyətinin səbəbləri, taktiki səhvləri və ondan alınan ibrət dərsləri və s. bu kimi məsələlərə 90-cı illərin əvvəllərinə qədər Sovet ideoloji təzyiqinin nəticələrinə yetərincə cavab verilməmişdi.[8;9]

1991-ci ildə sosializm sisteminin dağılması ilə bütün sahələrə, o cümlədən İranda Azərbaycan türklərinin 1941-1946-cı illərdəki milli-azadlıq hərəkatı ilə əlaqədar tarixi hadisələrə obyektiv yanaşılmasına əlverişli şəraitin yarandığı qeyd olunmalıdır. İranda isə 1978-ci ildə şahlıq rejiminin devrilməsindən sonra tarix elminə müəyyən qədər müsbət təsir göstərdiyini görmək mümkündür.

---

8 Əkrəm Rəhimli – Bije. 21 Azərə gedən yol. ttps://www. Xalqcebhesi.az/news/southazerbaijan/37056.html

9 Əkrəm Rəhimli- Bije: Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər)-I hissə. https://gadtb.com/%C9%99kr%C9%99m-r%C9%99-himli-bije-guney- az%C9%99rbaycanda- milli-demokratik-h%C9%99r%C9%99kat-1941-1946-ci-ill%C9%99r-i-hiss%C9%99/



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**